# ELMİ TƏDQİQATLAR

ARXEOLOGİYA

**RƏHİMOVA M.N.**
**ƏLİYEV O.K.**

## NAXÇIVANIN ENEOLİT DÖVRÜ ABİDƏLƏRİ VƏ ARAZ ÇAYININ YUXARI AXARI BOYUNDA ENEOLİT DÖVRÜ PROBLEMİ

Eneolit dövrü bəşəriyyətin irəliyə döğru inkişaf tarixində mühüm mərhələlərdən biri olmuşdur. Artıq bu mərhələdə insanlar münbit ərazilərin deməк olar ki, hər bir yerində məskunlaşmışdılar. Digər tərəfdən artıq bu mərhələdə insanlar yeni-yeni ərazilər axtararaq müxtəlif istiqamətlərdə miqrasiyaya başlamışlar. Azərbaycanın bol sulu Araz və Kür çayları ətrafı torpaqları əkinçilik təsərrüfatını inkişaf etdirmək üçün əlverişli olduğundan eneolit dövrü təsərrüfat həyatının zərurəti üzündən qədim insanların əsas məskənlərindən olmuşdur. Bu dövr abidələrinin tədqiqinə hələ ötən əsrin ortalarından başlanmışdır. Lakin, uzun zaman eneolit dövrü, onun xarakteri, yaşayış məskənləri, insanların təsərrüfat və məişət həyatı barədə mübahisələr davam etmişdir. Azərbaycanın Mil-Qarabağ düzü abidələrinin arxeoloji materiallarının təhlilindən sonra ilk dəfə olaraq A.A.İessen belə bir nəticəyə gəlmişdir ki, «… Kür-Araz mədəniyyətini eneolit dövrünə aid etməyə heç bir əsas qalmamışdır.., bizim Kültəpə mədəniyyətini eneolit dövrünə aid etməyə tam əsasımız vardır. Kür-Araz mədəniyyəti isə mis-mərgümüş qarışığından, mis-mərgümüş tuncundan hazırlanmış alətlərlə, yüksək səviyyədə inkişaf etmiş metallurgiya ilə xarakterizə olunur» (17, 17). Maraqlıdır ki, belə bir qənaətə A.A.İessenlə eyni zamanda O.H.Həbibullayev də gəlmişdir (11, 5). O.H.Həbibullayevin belə bir qənaətə gəlməsinə səbəb onun tərəfindən başlanılmış I Kültəpə qazıntıları olmuşdur.

O, 1951-ci ildə Naxçıvan ərazisindəki I Kültəpədə qazıntılara başlayır. Həmin tədqiqat ilində Kültəpədə üç kəşfiyyat sahəsi salınmışdır. Birinci sahə (50 m$^2$) 1,25 m., ikinci sahə (21 m$^2$) 2,25 m., üçüncü sahə isə (22,75 m$^2$) 6 m. dərinliyədək qazılmışdır (10, 13). Buradan boyalı qab hissələri ilə yanaşı daha qədim dövrlərə aid maddi mədəniyyət nümunələri qalıqları əldə olunmuşdur (12, 36-45).

1955-ci ildə üçüncü sahə daha da genişləndirilərək (65 m$^2$) əvvəlcə 16,75 m., sonra isə tən yarıya bölünərək 21,6 m. dərinliyədək qazılmışdır (10, 13). Buradan eneolit dövrünə aid materiallar əldə edilmişdir (10, 13).

1956-cı ildə təpənin qalan hissəsində-şərti olaraq V №-li sahə adlandırılan sahədə qazıntılar başlanır. Aşağı hissələrdə qazıntı sahəsi 130-150 m$^2$ olmuşdur. 1959-cu ildə V №-li sahə genişləndirilərək 310 m$^2$-ə çatdırılmış və 19,5 m. dərinliyədək qazılmışdır. I Kültəpədə mədəni təbəqələrin ümumi qalınlığı 22,2 metrə çatır (13,18).

Naxçıvanın eneolit dövrü abidələrinin digər qrupu Şərur rayonunda-Arpaçay vadisində qeydə alınmışdır. Bunlar Ovçular təpəsi, Xələc yaşayış yeridir. «Ovçular təpəsi» qədim yaşayış yeri Şərur rayonunun Dizə kəndi ərazisində, Arpaçayın sol sahilində hündür təpə üzərində yerləşir. Təpənin bir hissəsinin üzərini Dizə kəndinin

müasir qəbristanlığı tutur. Abidənin yerləşdiyi təpənin müxtəlif hissələri dağıntılara məruz qalmışdır. Üzərində televiziya qülləsinin qurulması ilə əlaqədar təpənin ən yuxarı hissəsi dağıdılmışdır. Kəndin iki tərəfindən təpənin üzərinə qalxan yolun çəkilməsi də abidənin dağılmasına səbəb olmuşdur. Abidədə 2001-ci ildə 5x5 m. sahədə kəşfiyyat xarakterli qazıntılar aparılmışdır. Bu qazıntı sahəsində mədəni təbəqənin qalınlığının 1,10 m. olduğu müəyyənləşdirilmişdir. Qazıntı sahəsindən əldə edilmiş arxeoloji materiallar əsasən eneolit və ilk tunc dövrünə aiddir (2, 9-18).

Ovçular təpəsində daha geniş arxeoloji qazıntılar 2006-cı ildə Azərbaycan-Fransa birgə arxeoloji ekspedisiyası tərəfindən aparılmışdır. Bu zaman 300 kv.m. sahədə qazıntılar aparılmış və maraqlı arxeoloji materiallar əldə edilmişdir. (Bu barədə abidədə aparılan qazıntıların rəhbri S.H.Aşurov məlumat vermişdir.)

Şərur rayonunda qeydə alınmış başqa bir eneolit abidəsi Xələc yaşayış yeridir (15). Bu qədim yaşayış yeri eyni adlı kəndin qərb qurtaracağında, Araz çayının yaxınlığında yerləşir. Xələc dağının şərq tərəfi müasir qəbristanlığın salınması, qərb tərəfi isə daş karxanası kimi istifadə olunma nəticəsində güclü dağıntıya məruz qalmışdır. Abidədən toplanılmış yerüstü materiallar müxtəlif dövrlərə aiddir. Buradan eneolit dövrünə aid keramika ilə yanaşı, tunc gövrünün bütün mərhələlərinə aid materiallarda əldə olunmuşdur. Abidənin üst təbəqələrində son tunc dövrünə aid qəbirlərin olduğu ehtimal olunur. Vaxtilə abidənin cənubunda küp qəbirlər olması haqqında yerli əhali arasında fikirlər vardır. Lakin, maraqlıdır ki, həmin ərazilərdə antiq dövrə aid heç bir materiala rast gəlinmir. Bu səbəbdən vaxtilə abidədə dağıdılmış küp qəbirlərin hansı dövrə məxsusluğu barədə konkret fikir söyləmək mümkün deyildir.

Naxçıvan ərazisində qeydə alınmış başqa bir eneolit abidəsi yerli əhali tərəfindən Kəngərli zonası adlandırılan Qarabağlar kəndi ərazisindədir. Abidə kəndin qərbində yerləşir. Bu abidədən şimal-qərbdə Tənənnəm kəndi və müstye dövrünə aid edilən Qazma mağarası yerləşir. Damlama yaşayış yeri alçaq dağların arasındakı nisbi düzənlikdə yerləşir. Çox güman ki, abidənin yaxınlığından çay keçmişdir. Abidədə M.M.Seyidov tərəfindən aparılmış kəşviyyat qazıntıları zamanı eneolit dövrünə aid saman qatışıqlı keramika əldə edilmişdir (9, 30).

Eneolit dövrünün başqa bir abidəsi Naxçıvan MR-in qərbində-Sədərək düzündə qeydə alınmışdır. Həbubullayev tərəfindən abidədə 1958-ci ildə kəşfiyyat xarakterli tədqiqat aparılmışdır. Uzun illər ərzində abidənin üzəri üzüm bağları sonralar isə əkin sahəsi kimi istifadə olunduğundan tam dağıdılmışdır. İndi abidənin izləri demək olar ki, itmişdir. Lakin, V.H.Əliyev tərəfindən abidədən müxtəlif dövrlərə, o cümlədən eneolit dövrünə aid keramika nümunələri toplanılmışdır. Buradan əldə edilmiş materialların bir qismi isə Şərur rayon tarix-diyarşünaslıq muzeyində saxlanılır (14, 61-67).

Naxçıvan MR ərazisində eneolit dövrünə aid qəbir abidələri I Kültəpə və Ovçular təpəsi yaşayış yerlərindən məlumdur. I Kültəpədə yaşayış məskəninin daxilində eneolit dövrünə aid 85 qəbir abidəsi təmizlənmişdir. Qəbirlərin bəzilərinin döşəməsi suvanmışdır. Skeletlər arxası və ya böyrü üstə dəfn edilmişlər. İstiqamətləri müxtəlifdir. Bir qismi istisna olmaqla qəbirlərdə eneolit dövrünə aid materiallara rast gəlinmişdir. Qəbirlərdən ikisində isə it skeleti təmizlənmişdir (13, 39-52).

Ovçular təpəsi abidəsindən tsə tam fərqli qəbir abidəsi məlumdur. 2006-cı ildə burada Azərbaycan-Fransa birgə ekspedisiyası işləyərkən dağıdılmış küp qəbir tə-

mizlənmişdir. Tədqiqatçıların verdiyi məlumata görə bu qəbir eneolit dövrünə aiddir. (Qəbir barədə S.H.Aşurov məlumat vermişdir).

Araz çayının sağ sahili boyunca olan Cənubi Azərbaycan əraziləri Ağrı dağı ətəklərindən başlayaraq şərqə doğru qalın lava qatları ilə örtülmüşdür. Bu səbəbdən bu ərazidə demək olar ki, arxeoloji abidələrin qeydə alınması mumkun olmamışdır.

Son enolit dövrünə aid abidələr son illər Naxçıvanla qonşu olan Ağrı dağı bölgəsindən tapılmışdır. Bunlar Hazinetepe, Giçik Mövkii abidələridir. (4, 82-92) Hazinetepedən tapılmış ağız səthi maili çərtmələrlə bəzədilmiş qab sınıqları və e.ə.3700-cü ilə aid edilir və bu materiallar Amuq F, Texut materialları ilə müqayisə edilir (3, 16).

Tədqiqatçılar Sioni və I Kültəpənin son eneolitinin Suriya-Mesopatamiya keramikasından seçildiyini qeyd edirlər (3, 17).

Anadolu ərazisindəki digər bir abidə-Sağlıksuyundan tapılmış bir neçə parça yalnız bəzi xüsusiyyətlərinə görə Kür-Araz keramikasına oxşayır. Bu materialların İlk tunc dövrü və eneolit dövrünün əlaqəsini izləməyə imkan verdiyi qeyd olunur. (5, 299-316)

Anadolunun nisbətən içərilərinə doğru, Doğubəyazitin qərbindəki Mollacem və Van gölünün şərqindəki Yalantaş yaşayış yerlərində son eneolit materialları əldə edilmişdir. Bu materiallar Yuxarı Mesopotamiyanın qərbində və Suriyanın şimal-qərbində yerləşən Tell Afis, Horum və Tell Hammam-et Turkman materialları ilə eyniyyət təşkil edir. Mollacem materiallarının tərkibində saman qatışığı vardır. Yalantaş keramikası da saman qatışıqlıdır lakin bir qisminin üzəri boyalıdır. Bu materiallar forma, rəng və bəzəmə ünsürlərinə görə I Tilkitəpə ilə müqayisə olunur (8). A.Özfirat və K.Marronun fikrincə buna yaxın materiallar Texutdanda məlumdur.

Maraqlıdır ki, artıq qeyd olunduğu kimi, Mesopatamiyanın yuxarılarına doğru ərazilərin son eneolit materialları şimal-şərqi Anadolu və Naxçıvanın eneolit materiallarından və ya Araz çayının yuxarı axarı boyunda yerləşən həmdövr materiallarından fərqlənirlər. Araz boyu abidələr yerləşdikləri coğrafi məkanları ilə də fərqlənirlər. Belə ki, Ovçular təpəsi, Sədərək, Xələc qədim yaşayış məskənləri dəniz səviyyəsindən 850-900 m yüksəklikdədirlər. Bu ərazilərədə eneolit mədəniyyətinin inkişaf dinamikası pozulmamışdır. Lakin bölgədə yaşayan əhalinin İkiçayarası ilə sıx əlaqəsi olmuşdur. II Kültəpənin eneolit dövrü mədəni təbəqəsinin üst laylarında qəbir abidələrinə rast gəlinməmişdir. Və əksinə olaraq Ovçular təpəsi abidəsində küp qəbirə təsadüf olunmuşdur. Bu fakt bir daha sübut edir ki, eneolit dövrünün sonlarına yaxın qədim insanların dini-ideoloji baxışlarında baş vermiş dəyişikliklər səbəbindən qəbir abidələri yaşayış yerlərindən kənara çıxarılmışdır. Yalnız uşaqların küp qəbirlərədə yaşayış məskəni daxilində dəfn edilməsi qaydası isə fikrimizcə Mesopotamiya ilə bilavasitə əlaqələrin nəticəsi olmuşdur. Lakin bu oxşarlıq yalnız zahiri xarakter daşıyır. Arxeoloji materiallar Mesopotamiya materiallarından tam fərqli olub yerli xüsusiyyətlərə malikdir.

Bir sıra tədqiqatçılar Azərbaycanın, o cümlədən Naxçıvanın e.ə. V-III minilliklləri əhatə edən eneolit və ilk tunc dövrləri arasında varislik əlaqəsinin olmasına şübhə ilə yanaşırlar. Bu zaman onlar mülahizələrini əsaslandırmaq üçün Qafqazın həmdövr abidələri içərisində etalon rolunu oynayan I Kültəpədə eneolit və ilk tunc dövrü təbəqələri arasında 30 sm-lik lal təbəqənin olması faktına əsaslanırlar. Lakin son illərin tədqiqatları sübut edir ki, Azərbaycan ərazisində eneolit və ilk tunc dövrləri

arasında əlaqə kəsilməmiş və Kür-Araz mədəniyyəti yerli eneolit mədəniyyəti zəminində meydana çıxmışdır. Ovçular təpəsi yaşayış yerinin son tədqiqatları fikirlərimizi təsdiq edir və bu əlaqələri izləmək baxımından Zaqafqaziya abidələri sırasında xüsusi yerə malikdir.

Eneolit dövrünün Naxçıvan ərazisində tədqiq olunmuş abidələrində - I Kültəpə (13, 24-36) və Ovçular təpəsi abidələrində yaşayış binalarının və təsərrüfat tikililərinin qalıqları dairəvi və dördkünc plandadırlar. Oxşar bina qalıqlarına Urmiya ətrafındakı Yanıqtəpə (6, 137) və Göytəpə (7, 18) abidələrində rast gəlinir.

Naxçıvanın eneolit dövrü saxsı məmulatının gilinə əsasən saman və müxtəlif bitki qatışıqları ilə yanaşı narın qumda qatılmışdır. Bu isə daha çox ilk tunc dövrü üçün xarakterikdir. Bir qism eneolit qablarının formaları artıq tədqiqatçıların qeyd etdiyi kimi ilk tunc dövrü qablarını xatırladır (1, 94). Naxçıvanın eneolit dövrü qablarının üzərində kobud şiş yapmalara (I Kültəpə), primitiv yarımşar formalı qulplara (Ovçular təpəsi) təsadüf olunur.

İlk tunc dövründə qabların üzərinin, bəzən isə daxilinin daraqvari alətlə işlənməsi eneolit dövrünün dulusçuluq texnikasının ənənəvi davamıdır. Bununla yanaşı ilk tunc dövründə Naxçıvan keramikasının əksəriyyətinin boğaz hissəsinin daxildə müxtəlif boyalarla rənglənməsi adəti meydana çıxır ki, bu bir ənənənin başqa bir formada təzahürüdür. İki mərhələnin bir-biri ilə əlaqəsi daha çox qabların üzərinin naxışlanmasında özünü göstərir. Ovçular təpəsinin eneolit dövrü keramikası üçün xarakterik olan məməcik şəkilli yapmalardan və qabların boğaz hissəsini əhatələyən kəmərşəkilli bəzəklərdən ilk tunc dövrü keramikasının naxışlanmasında daha geniş istifadə olunmuşdur. Bu xüsusiyyətdən çıxış edərək Naxçıvan ərazisində Kür-Araz mədəniyyətinin özündən əvvəlki son eneolit mədəniyyəti zəminində meydana çıxdığını söyləyən tədqiqatçılar bizcə haqlıdırlar.

İstər tikinti texnikası və istərsə də arxeoloji materialların təhlili Ovçular təpəsinin son eneolit dövrünə (e.ə. V min. sonu – IV min. əvvəli) aid olduğunu söyləməyə imkan verir.

Əldə olunmuş materiallar sübüt edir ki, Arazboyunda yaşamış qədim insanlar daşişləmə və dulusçuluq sənətinin sirlərinə yaxşı bələd olmuşlar. İlk növbədə çoxsaylı müxtəlif kəsici alətlərin əldə olunması sübut edir ki, bölgədə e.ə. V-IV minilliklərdə yaşamış əhalinin əsas məşğuliyyəti əkinçilik olmuşdur. Çox güman ki, buna ilk növbədə bölgənin yerləşdiyi təbii-coğrafi şərait imkan vermişdir.

Maraqlıdır ki, istər I Kültəpədə və istərsədə Ovçular təpəsində əhali eneolit dövrünün müəyyən mərhələsində yaşayış yerini tərk etmişlər. Lakin bu tərketmə abidələrdə eyni zamanda baş verməmişdir. Ovçular təpəsində insanlar son eneolit dövründə (e.ə. V min. sonu – IV min. başlanğıcı) məskunlaşmış və qısa müddətdən sonra oranı tərk etmişlər. Çox güman ki, oturaq əkinçiliklə məşğul olan əhali, Arazboyunun nisbətən düzən ərazilərinə (Xələc, Ərəbyengicə, Şortəpə, Aşağı Daşarx və s.) yayılmışlar. Bu tərketmələr dinc xarakter daşımışdır və heç bir yeni elementlərin peyda olması müşayət edilmir. Qısa zaman kəsiyindən sonra insanlar yenidən (ilk Tunc dövründə) öz əvvəlki məskənlərinə qayıtmışlar. İlk tunc dövründə köçmə yaylaq maldarlığının inkişafı insanları nisbətən yüksək dağətəyi və dağlıq ərazilərə yayılmağa məcbur etmişdir.

Şübhəsiz eneolit dövrünün problemlərinin həlli üçün Naxçıvan, Şərqi Anadolu ərazisindəki abidələrdə geniş tədqiqatların aparılması zəruridir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Aşurov S.H. Naxçıvanın ilk tunc dövrü keramikası. Bakı, 2002.
2. Aşurov S.H. Naxçıvanda arxeoloji tədqiqatlar. (2001-2002-ci illər). Bakı, 2003.
3. Aynur Özfırat, Caterine Marro. 2002 yılı Van, Ağrı ve Iğdır illeri yuzey araştırması. XXI Araştırma sonuçları toplantısı. 1.Cilt, 26-31 mayıs 2003, Ankara.
4. Aynur Özfırat. Ağrı dağı Arkeolojik yüzey araştırması. Güneşin doğduğu yer: Doğubayazit sempozyumu. İstanbul, 2004.
5. Aynur Özfırat, Caterine Marro. 2003 yılı Van, Ağrı ve Iğdır illeri yuzey araştırması. XXII Araştırma sonuçları toplantısı. 2.Cilt, 24-28 mayıs 2004 Konya.
6. Brown T.B. Excavations in Azerbaijan 1948. London, 1951.
7. Burney C.A. The Exvavations at Janig Tepe, Azerbaijan. Second Preliminary Report "Irag", vol XXIX, 1961.
8. Korfmann M. Tilkitepe. Die ersten Ansatze prahistorischer Forschung in der östdichen Türkei. İstanbuler Mitteidungen Beiheft 26. Verlag Ernst Vasmuth, Tübingen 1982.
9. Seyidov A.Q. Naxçıvan e.ə.VII-II minilliklərdə. Bakı, 2003.
10. Həbibullayev O.H. Kültəpədə arxeoloji qazıntılar. Bakı, 1959.
11. Həbibullayev O.H. Azərbaycanda eneolit dövrü olmuşmu? – «Elm və həyat» jurnalı, №3 (27), 1963.
12. Абибуллаев О.А. Раскопки холма Кюльтепе. – КСИИМК, вып.51, 1953.
13. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Бакы,1982.
14. Алиев В.Г. Энеолитическое поселение Садарак. Изв. АН Аз.ССР Баку,1985, №2
15. Алиев Н.Г. Сведения об энеолитическом поселении Халадж. – Т.д. конферен. Великий Октябрь и развитии археологической науки в Азербайджане, Баку, 1988.
16. Алиев Н.Г., Нариманов И.Г. Культура Северного Азербайджана в эпоху позднего энеолита. Баку, 2001.
17. Иессен А.А. Из исторического прошлого Мильско-Карабахской степи. – В кн.: Труды Азербайджанской экспедции. МИА СССР, №125, М-Л., 1965.

**Ragimova M.N.**

## SITES OF ENEOLITHIC PERIOD IN NAKCHICHEVAN AND ENEOLITHIC PROBLEM IN APPER PART OF ARAZ RIVER

***S U M M A R Y***

Araz and Kura rivers valleys in Azerbaijan were fertile for development in Eneolithic period and that is why these areas were settled by the ancient people.

People left Kultepe I and Ovchulartepe settlement in Nakhichevan at a certain stage of Eneolithic period. But this process did not happen at the same time. At Ovchular tepe people settled in the Late Enenolithic period (Vmill.B.C.-IV mill.B.C.) and later they left those areas. May be people who had sedentary life migrated to the plains of Azerbaijan like Khalaj, Arabyengija, Shortepe, Asagi Dasharkh, etc.

**Рагимова М.Н.**

# ПАМЯТНИКИ НАХИЧЕВАНА В ПЕРИОД ЭНЕОЛИТА И ПРОБЛЕМА ЭНЕОЛИТИЧЕСКОГО ПЕРИОДА ВДОЛЬ ВЕРХНЕГО ТЕЧЕНИЯ АРАЗА

## *Р Е З Ю М Е*

Земли Азербайджана вдоль полноводных рек Араза и Куры были благоприятными для развития пахотного хозяйства, и по этой причине еще с периода энеолита они стали основными стоянками древних людей.

В определенный период энеолита, население Кюльтепе, а также Овчулартепеси в Нахичване покинули свои места проживания. Но уход людей из этих поселений происходил в разные времена. На холме Овчулартепеси люди поселились на последнем этапе энеолита (конец V в. до н.э. – начало IV до н.э.), но скоро покинули это место. Вполне вероятно, занимающийся оседлым земледелием население, переселилось на более равнинную зону в долине Араза (Халадж, Арабйенгинджа, Шортепе, Ашагы Дашарх и т.д.).